Ədəbiyyat qəzeti

3 oktyabr 2020-ci il 27



Sərvaz HÜSEYNOĞLU

# Əsgərə məktub

*Sən tarix yazırsan bu gənc yaşında,*
*Barmaqlar tətikdə şana kimidi.*
*Sərhəd kənarında, sərhəd başında*
*Elə oğullar da ana kimidi!*

*Salam, əsgər balam,*
*Yenilməz qalam,*
*Babəkdən, Həzidən yadigar qalan...*
*And yerim, yurd yerim, salam, min salam!*
*Könül oxşamaqda, qəlb oxşamaqda,*
*Ürək dikəltməkdə mən əhli-halam.*

*Aç oxu bu şeiri, Vətən yolunda*
*Həmişə ağ olan üzlərə oxu!*
*Ayaq izimizin heykəlləşdiyi*
*Cığırlara oxu, düzlərə oxu.*

*Ürəyi açılır qara daşın da*
*Sənin xoş xəbərin yetəndə, oğlum!*
*Torpaq vətənləşir sərhəd başında*
*Övladlar qayatək bitəndə, oğlum.*

*Sənə əmanətdi bu yurdun haqqı,*
*Sənin varlığınla belə xoşhalam.*
*Unutma, kökü çox dərinə getmir*
*Ürəkdə bitməsə bu Vətən, balam!*

*Salam əsgər balam, yenilməz qalam,*
*Olsun dil əzbərin bu Vətən andı...*
*Bu döyüş günündə qabağa ver ki,*
*Ürəyim sınanmış təbilvurandı.*